# Rusiyanın Vardanyan ssenarisi də çürük çıxacaq

Azərbaycanın Qarabağ bölgəsində Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasına "dövlət naziri" kimi göndərilən Ruben Vardanyan yeni təlimatlar üçün Moskvaya yollanıb.

Kreml qüllələrindən birində yüksəkrütbəli kuratorlarından növbəti tapşırıqlar gözləyən Vardanyan, 2006-2011-ci illərdə prezidenti olduğu Skolkovodakı Moskva İdarəetmə Məktəbində baş tutan tədbirdə iştirak etməyə də macal tapıb. Bu barədə məlumat verən "Caliber.Az" saytı bildirir ki, məktəb rəhbərliyi, Vardanyan özü və mühafizəçiləri bunun Azərbaycan tərəfində müəyyən suallar doğuracağını anlayaraq, onun seminarda iştirakının və çıxışının lentə alınmamasına çalışıblar. Buna baxmayaraq, tədbirdə nələrin müzakirə olunduğu barədə məlumat əldə edilib. Tədbirin spikeri Vardanyanı auditoriyaya "dəmir yumruğ"un məhv etdiyi separatçı qurumun "dövlət naziri" kimi təqdim edib. Xatırladaq ki, "Skolkovo" Fondunun Himayədarlar Şurasının sədri Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedevdir və fond həm də federal büdcədən maliyyələşdirilir.

Əldə edilən məlumata görə, Vardanyan məktəbdə çıxışı zamanı "Qarabağda uğur qazanmaq şansını 3 faiz" qiymətləndirdiyini etiraf edib. Kifayət qədər nikbin rəqəmdir, çünki onun reallıqda şanslarının sıfır olduğu aydındır - Bakı bu marionet-



kaya və onun sahiblərinə Qarabağ bölgəsində vəziyyəti qızışdırmağa və sabitliyi pozmağa imkan verməyəcək. Bundan başqa, Vardanyanın Qarabağın erməni əhalisi adından Azərbaycan rəhbərliyi ilə "baş danışıqçı" roluna girmək cəhdləri də iflasa məhkumdur.

Xatırladaq ki, Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şubellə görüşündə Prezident İlham Əliyev deyib: "Ermənistan Qarabağ ermənilərin hüquqları və təhlükəsizliyi barədə söhbət aparmaq istəyirsə, bu, alınmayacaq. Biz bu haqda Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma Moskvanın göndərdiyi, ciblərində rus xalqından oğurladığı milyardlarla pula sahib Vardanyan kimi insanlarla yox. O, Moskvadan oraya çox aydın gündəliklə göndərilib. Biz Qarabağda yaşayan və yaşamaq istəyən insanlarla söhbətə hazırıq. Yeri gəlmişkən, bu proses başlayıb".

Hərbi ekspert Ədalət Verdiyev bildirir ki, Ruben Vardanyan Rusiya vətəndaşlığından görüntü xətrinə imtina etsə də, onun Kremlin maraqlarına birbaşa xidmət etdiyi şübhəsizdir. Məhz buna görə Prezident İlham Əliyev Soçidə rusiyalı həmkarı Vladimir Putinlə görüşündə Qarabağ məsələsində müzakirə ediləcək nəyinsə qalmadığını demişdi.

Prezident İlham Əliyev Silahlı Qüvvələrimizin qəhrəmanlığı hesabına Qarabağ münaqişəsini artıq həll edib. İlham Əliyevin qələbədən sonrakı iki ildə imzaladığı sənədlərin heç birində Dağlıq Qarabağ barədə bir kəlmə də yoxdur. Əvəzində Xankəndi şəhərinin də daxil olduğu "Qarabağ iqtisadi zonası" yaradılıb. Yaxın iki ildə Azərbaycan hökuməti Ağdamdan Xankəndiyə qaz kəməri çəkməyi planlaşdırır. Vardanyanın bu planlara mane olmaq imkanı isə sıfırın altındadır. Üstəlik, o, Azərbaycan ərazisinə qanunsuz daxil olaraq, separatizmi dəstəkləyən ünsür kimi hüquq-mühafizə və təhlükəsizlik orqanlarımız üçün legitim hədəfdir. Güvəndiyi Rusiya sülhməramlılarının taleyi də məlumdur. Sülhməramlılar mandatları bitən kimi Azərbaycandan yola salınacaq.

Azərbaycan Prezidenti dəfələrlə bildirib ki, onun üçün "Qarabağ problemi" anlayışı mövcud deyil, erməni millətindən olan Azərbaycan vətəndaşları var. Qarabağ münaqişəsi artıq həll olunub, "status" cəhənnəmə gedib, Rusiya sülhməramlılarının mövcudluğu isə müvəqqətidir.

***R. HİLALOĞLU,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.-1 dekabr.- S.4.